**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# VALİDEYNLƏRDƏ SƏRİŞTƏLİLİYİN İNKİŞAF ETDİRİLMƏSİNİN PEDAQOJİ ƏSASLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Səbinə Mürsəl qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2026**

Dissertasiya Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

pedaqogika elmləri doktoru, dosent
**Kamal Həsən oğlu Camalov**

pedaqogika üzrə fəlsəfə doktoru
**Ramiz Cəlal oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə baş verən ictimai-siyasi proseslər, əsaslı dəyişikliklər nəticəsində məktəbin ritmik həyatı pozuldu, ailə-məktəb əməkdaşlığının səviyyəsi xeyli aşağı düşdü. 1992-ci ildə "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nun qəbulu Azərbaycan təhsilində ciddi irəliləyişlərə gətirib çıxartmadı. Bu səbəbdən də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə İslahat Komissiyası (1998) yaradıldı. Həmin Komissiya tərəfindən ölkədə təhsilin inkişaf istiqamətlərini özündə ehtiva edən İslahat Proqramı hazırlandı vətəsdiq olundu.[1] 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" təsdiq olundu.[2] Milli təhsil konsepsiyasının təsdiqi ilə ümumi təhsilin ilk səviyyəsində (ibtidai təhsil) köklü məzmun dəyişikliyi baş verdi, milli-mənəvi dəyərləri qoruyub saxlamağı bacaran, inteqrativ təfəkkürə və ümumi düşüncə tərzinə malik məktəbli şəxsiyyətinin yetişdirilməsi vacib hesab olundu. Əks təqdirdə Azərbaycan məktəblisinin bilik və bacarıq səviyyəsi beynəlxalq qiymətləndirmənin tələblərinə uyğun ola bilməzdi. Təhsildə məzmun dəyişikliyi həm də onun keyfiyyət məsələsini önə çıxartdı. Çünki dünyada rəqabətə qabil insanların yetişməsinin əsas şərti keyfiyyətli təhsil hesab olunur. Keyfiyyət anlayışı pedaqoji prosesdə şagirdlərin qazanmış olduğu dəyərləri (bacarıqları) ehtiva edir. Məhz həmin səriştələr şəxsiyyətin inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verir. Bunun üçün də hər şeydən öncə, şagirdin idraki imkanlarını üzə çıxarmaq məqsədilə ümumtəhsil məktəblərində sağlam və inişafetdirici təhsil mühitinin formalaşdırılması, təlimin tələbyönümlü, nəticəyönümlü və inteqrativ prinsiplər əsasında təşkili, şagirdin ümumi inkişafına, meyil və maraqlarına uyğun

---

[1] Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Xalq qəzeti, 1999, 15 iyun.

[2] Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurikulum) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Xalq qəzeti, 2006, 30 oktyabr

olaraq yeni təhsil-tərbiyə və qiymətləndirmə texnologiyalarından istifadə edilməsi əsaslandırıldı.

Ümumtəhsil məktəblərində illərlə ənənəvi qaydada fəaliyyət göstərən müəllimlərin bu prosesə uyğunlaşması olduqca çətin idi. İslahatın uğurla getməsinə mane olan amillərdən biri də bəzi valideynlərin müəllimlərin işinə yersiz müdaxiləsi idi. Belə valideynlər təhsildə gedən dəyişikliklərə uyğunlaşa bilmirdi. Belə ki, onların əksəriyyətinin pedaqoji bilik və bacarıqları ənənəyə əsaslandığından qarşıya qoyulan tələblərə cavab vermirdi. Bu səbəbdən də valideynlərin zəruri pedaqoji bacarıqlara (səriştələrə), təhsil-tərbiyənin prinsip və metodları ilə bağlı bilgilərə malik olması, məktəbin idarə olunmasında, pedaqoji prosesin iştirakçısına çevrilməsində, hətta təhsil proqramlarının hazırlanması prosesinə cəlb edilməsində vacib hesab edildi. *"Valideynlərin təhsil prosesində pedaqoqlarla ciddi əməkdaşlıq etməsi, təhsil prosesinin iştirakçısına çevrilməsi və bu işdə bacarıqlara sahib olması məqsədə çevrildi"*[3].

Ancaq valideynlərdə pedaqoji səriştəliliyin inkişafına kömək edən səmərəli pedaqoji texnologiyaların olmaması, problemin nəzəri və praktik cəhətdən əhatəli şəkildə araşdırılmaması ciddi çətinliklər yaradırdı. Paradoks ondan ibarət idi ki, bir tərəfdən cəmiyyət sürətlə inkişaf edir, bu inkişafın tempinə uyğun olaraq məktəblərin qarşısında yeni dövrün tələblərinə uyğun olan, rəqabətyönümlü gənc nəslin yetişdirilməsi tələbi qoyulur. Digər tərəfdən, böyüyən nəslin tərbiyəsində daha çox məsuliyyət daşıyan valideynlərin böyük əksəriyyəti pedaqoji potensialın yoxluğu və ya istənilən səviyyədə olmamaşı səbəbindən məktəbə zəruri dəstəyi göstərə bilmirdi. Ailə və məktəb arasında səmərəli və məhsuldar əməkdaşlıq yaranmırdı. Bu sahədəki boşluğu doldurmaq məqsədilə dissertasiya işimizin mövzusunu "Valideynlərdə səriştəliliyin inkişaf etdirilməsinin pedaqoji əsasları" kimi müəyyənləşdirdik.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan (N.Kazımov, Y.Kərimov, Ə.Ağayev, Ə.Paşayev, A.Abbasov, F.Rüstəmov, H.Əlizadə, L.Qasımova, M.İsmixanov, F.İbrahimov, M.İlyasov,

---

[3] Əliyev E. Müəllimlərin peşəkar kompetensiyalarını artırmaq zərurəti. Azərbaycan müəllimi. 2019, 1 fevral

R.Hüseynzadə və b.) və rus tədqiqatçılarının (V.A.Mixeeva, T.P.Simakova, İ.A.Xomenko və b.) araşdırmalarına görə, müasir dövrdə nə Azərbaycan, nə də Rusiya məktəblərində sistemli və ardıcıl şəkildə həyata keçirilən sosial əməkdaşlıq formalaşmayıb. Ailənin uşaqların təhsil-tərbiyəsindəki fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə məktəb və ailənin əməkdaşlığına əsaslanaraq valideynlərdə pedaqoji səriştələrin formalaşdırılması problemi isə indiyə kimi, ümumiyyətlə, öyrənilməyib.

Cəmiyyətdə ailənin rolu və ailə tərbiyəsi ilə bağlı Azərbaycan maarifpərvərlərinin (M.F.Axundov, A.A.Bakıxanov, M.Ş.Vazeh, H.M.Zərdabi, N.Nərimanov, M.Ə.Rəsulzadə, F.B.Köçərli, R.B.Əfəndiyev, C.Məmmədquluzadə, S.M.Qənizadə, A.Səhhət və b.), pedaqoq (H.Əhmədov, S.Quliyev, Ə.Ağayev, Y.Talıbov, İ.Vəlixanlı, O.Vəliyev, S.Axundov, N.Xəlilov, A.Abbasov və s.) və psixoloqların (Ə.Bayramov, Ə.Əlizadə, R.Əliyev, N.Çələbiyev və b.) maraqlı araşdırmaları vardır.

Son illərdə kiçikyaşlı məktəblilərin ailədə mənəvi tərbiyəsində nümunənin (T.Cahangirova, Q.Şahbazova), islami dəyərlərin (Ş.Baxışova) əhəmiyyəti, məktəbəhazırlıq qruplarında uşaqların həyat hadisələri ilə tanış edilməsi (Cəfərova L.), məktəblillərin idrak fəallığının yüksəldilməsində şagird, valideyn və müəllim əməkdaşlığı (Şıxəliyeva İ.), məktəbli şəxsiyyətinin formalaşmasında valideynin rolu (Əsgərova N.) fəlsəfə doktoru dissertasiyasında araşdırılmış, şagirdlərdə mənəvi inamın formalaşması ilə (G.Abbasova) bağlı valideynlərə dəyərli məsləhətlər verilmişdir.

**Tədqiqatın obyekti** məktəb-valideyn əməkdaşlığından ibarətdir.

**Tədqiqatın predmetini** isə valideynlərdə səriştəliliyin inkişaf etdirilməsinin pedaqoji əsasları təşkil edir.

**Tədqiqatın məqsədi** səriştəli valideyn hazırlığının nəzəri məsələlərini araşdırmaqdan, valideynlər arasında pedaqoji maarifləndirmənin nəzəri və praktik məsələlərini ümumiləşdirməkdən, ailədə kiçik məktəbyaşlı uşaqların təhsil-tərbiyəsində səriştəli valideynin rolunun əhəmiyyətini üzə çıxarmaqdan, valideynlərdə pedaqoji səriştələrin formalaşması modellərini səciyyələndirməkdən və pedaqoji səriştəliliyin formalaşdırılması üçün ailə-məktəb əməkdaşlığının səmərəli yollarını işləyib hazırlamaqdan və eksperiment yolu ilə təs-

diq etməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

- səriştəli valideyn hazırlığının nəzəri məsələlərini araşdırmaq;
- "pedaqoji səriştə" və "səriştəli valideyn" anlayışının mahiyyəti və məzmununu şərh etmək, müasir Azərbaycan ailəsinin pedaqoji potensialını öyrənmək;
- valideynlər arasında pedaqoji maarifləndirmə problemini tarixilik və müasirlik kontekstində dəyərləndirmək;
- ailədə kiçik məktəbyaşlı uşaqların təhsil-tərbiyəsində səriştəli valideynin rolunu müəyyənləşdirmək;
- valideynlərdə pedaqoji səriştələrin formalaşdırılması modellərini səciyyələndirmək;
- valideynlərdəpedaqoji səriştəliliyin formalaşdırılmasında ümumtəhsil məktəbinin yerini və rolunu müəyyənləşdirmək;
- valideynlərdə pedaqoji səriştənin inkişaf istiqamətlərini müəyyənləşdirmək vəonun səmərəliliyini eksperimental yolla sübut etmək.

**Tədqiqatın fərziyyəsi.** Əgər valideynlərdə təhsilverici, tərbiyəedici, öyrədici və özünütəhsil səriştələrinin inkişafını təmin edən pedaqoji bilik, bacarıq və şəxsi keyfiyyətlər müasir innovativ məktəblərin tələblərinə uyğun olarsa, intellektual və əxlaqi-mənəvi cəhətdən inkişaf etmiş məktəbli şəxsiyyətini formalaşdırmaq, təhsilin keyfiyyətini yüksəlmək mümkün olar.

Dissertasiyada aşağıdakı **tədqiqat metodlarından** istifadə edilmişdir:

- ümumi nəzəri (elmi pedaqoji və metodiki ədəbiyyatın təhlili, pedaqoji təcrübənin öyrənilməsi, sistemləşdirilməsi və ümumiləşdirilməsi, pedaqoji səriştələrinin formalaşdırılması ilə bağlı şagirdlərin valideynlərinin fikirləri);
- empirik (müşahidə, müsahibə, anketləşdirmə);
- diaqnostik (ilkin və yekun);
- layihə (pedaqoji texnologiyanın layihələşdirilməsi, alqoritmləşmə);
- eksperiment (müəyyənedici, yaradıcı-dəyişdirici, yoxlayıcı).

**Tədqiqat mərhələləri.**Tədqiqat üç mərhələdə 2017-2021-ci illərdə aparılmışdır.

Eksperimentdə Mingəçevir şəhərindəki R.Mirabov adına 7 №li tam orta məktəbin, Mingəçevir şəhər 20 №-li tam orta məktəbin, R.Muradov adına Texniki Humanitar liseyin, Təbiət-Riyaziyyat və Humanitar Təmayüllü liseyin, Yevlax rayonunun Xaldan kənd Kompleks tam orta məktəbinin ibtidai sinif şagirdlərinin valideynləri iştirak etmişdir.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. Valideynlərdə pedaqoji səriştəliliyin inkişafı ölkənin iqtisadi inkişafı, ailənin məşğulluq səviyyəsi, cəmiyyətin ümumi mədəni səviyyəsi, informasiya mədəniyyəti, uşaq tərbiyəsi ilə bağlı ailə ənənələri, ailə üzvlərinin təhsillilik səviyyəsi, valideyn nüfuzu, ailənin iqtisadi durumu, ailənin uğurlu və ya uğursuz, tam və ya natamam olmasından asılıdır.
2. Müasir dövrdə ümumtəhsil məktəbləri ənənəvi ilə yanaşı, zəngin innovativ metod və texnologiyalara malik olduğu halda, valideynlərin pedaqoji səriştəliliyinin səviyyəsi aşağıdır.
3. Valideynlərdə təhsil, tərbiyə, öyrətmə və özünütəhsillə bağlı pedaqoji səriştələrin inkişafı ata-anaların həmin sahə ilə bağlı bilik, bacarıq, vərdiş və şəxsi keyfiyyətlərinin inkişaf səviyyəsindən asılıdır.
4. Valideynlərdə təhsil, tərbiyə, öyrətmə və özünütəhsillə bağlı pedaqoji səriştələrin inkişaf dinamikası məktəb ilə ailənin əməkdaşlığının səviyyəsindən asılıdır.
5. Məktəb və ailənin təhsil-tərbiyə səylərinin inteqrasiyası şagirdlərin əxlaqi-mənəvi və intellektual inkişafının mühüm şərtidir.

**Tədqiqatın elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərin valideynlərində pedaqoji səriştələrin inkişafının konseptual və metodoloji problemlərinin sistemli şəkildə öyrənilməsi, onlarda təhsilverici, tərbiyəedici, öyrədici və özünütəhsil səriştələrinin formalaşdırılmasının yol və vasitələrinin müəyyənləşdirilməsi tədqiqatın yeniliyi sayıla bilər. Tədqiqatda valideynlərdə pedaqoji səriştələrin inkişafının konseptual əsasları, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla məktəb və ailə əməkdaşlığının prinsipləri müəyyənləşdirilir, yeni yanaşmalar (özünütəhsil və inkişaf, kreativlik və s.) irəli sürülür.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** "Pedaqoji səriştə", "məktəblilərin valideynlərinin pedaqoji səriştələri" anlayışlarının pedaqoji anlayışlar sisteminə daxil edilməsi, müasir Azərbaycan ailəsinin pe-

daqoji potensialının öyrənilməsi, valideynlərdə pedaqoji mədəniyyətin formalaşdırılması probleminin tarixilik və müasirlik kontekstində dəyərləndirilməsi, uşağın yaş xüsusiyyətlərinə uyğun olaraq valideynlərdə pedaqoji bacarıqların formalaşdırılmasında ailə-məktəb əməkdaşlığının səmərəli təşkilinin imkan və yollarının müəyyənləşdirilməsi pedaqoji nəzəriyyəni zənginləşdirə bilər.

**Tədqiqatın praktikш əhəmiyyəti.**Tədqiqatın nəticələrindən icti- mai-mədəni vəmilli xüsusiyyətləri nəzərə almaqla kiçikyaşlı məktəblilərin valideynlərində pedaqoji səriştələrin inkişafı ilə bağlı texnologiyaların yaradılmasında və tətbiq edilməsində, valideynlərdə pedaqoji mədəniyyətin formalaşdırılması, ailə-məktəb əməkdaşlığının səmərəli təşkili ilə bağlı mühazirələrin oxunmasında, treninqlərin və seminarların təşkilində, "Pedaqogika" fənninin "Ailə və məktəb" bölməsinin, "Ailə pedaqogikası" dərsliyinin müvafiq fəsillərinin yazılmasında istifadə etmək olar. Tədqiqatın nəticələri özünütəhsillə məşğul olan valideynlərin pedaqoji səriştəliliyinin inkişafında da əhəmiyyətli rol oynaya bilər.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın nəticələri ilə bağlı Beynəlxalq və respublika səviyyəli elmi-nəzəri konfranslarda, Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında, Mingəçevir Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasında elmi seminarlarda məruzələr edilmişdir. Mingəçəvir şəhər və Xaldan kənd orta məktəbində valideyn iclaslarında kiçikyaşlı məktəblilərin valideynləri qarşısında mühazirələr oxunmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 məqalə (1 xaricdə) nəşr olunmuşdur.

Dissertasiya Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş – 12 səhifə, 22862 işarə; I fəsil – 59 səhifə, 119486 işarə; II fəsil – 66 səhifə, 115173 işarə; nəticə – 5 səhifə, 9018 işarə; istifadə olunmuş ədəbiyyat siyahısı 10 səhifə olmaqla dissertasiya işi ümumilikdə 154 səhifə, 266539 işarəni əhatə edir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

"Giriş"də tədqiqatın aktuallığı əsaslandırılır, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiyanın birinci fəsli **"Səriştəli valideyn hazırlığının nəzəri məsələləri"** adlanır. Fəslin *"Pedaqoji səriştə" və "səriştəli valideyn" anlayışının mahiyyəti və məzmunu"* adlı ilk paraqrafında "səriştə", "şəriştəlilik", "pedaqoji səriştə" və "səriştəli valideyn" anlayışlarının mahiyyətinə aydınlıq gətirlir. Əsaslandırılır ki, Azərbaycanda "səriştə" sözünün elmi dövriyyəyə daxil edilməsi "kompetensiya" anlayışı ilə bağlıdır. Kompetensiya anlayışı keçən əsrin 30-40-cı illərində ABŞ, 50-ci illərdə Avropa, 60-70-ci illərində Rusiya elmi-pedaqoji ədəbiyyatında geniş istifadə edilsə də Azərbaycanda ilk dəfə təhsil islahatları ilə bağlı normativ-hüquqi sənədlərin yazılmasında istifadə olmuşdur.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" (Milli Kurikulum)[4], "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"[5] və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"-nın[6] qəbulundan sonra pedaqoji səriştə, müəllimin səriştəsi, tərbiyəçinin səriştəsi, pedaqoji səriştəlilik anlayışının işlənmə intensivliyi yüksəldi. "Kompetensiya" anlayışı pedaqoji-psixoloji tədqiqatlarda tədricən "səriştəlilik" anlayışı ilə əvəz olundu.

Səriştəlilik anlayışının məzmunu çox genişdir. Xüsusi qabiliyyətlər, psixoloji durum, dar ixtisaslaşma, bacarıqlardan kompleks istifadə, sosial və fərdi fəallıq səriştəliliyin əsas göstəriciləri hesab olunur. Bəzi tədqiqatçılar müəyyən fəaliyyət sahəsi ilə bağlı zəruri biliklərə malik olmağı, qarşıya məqsəd qoymağı, resursları müəyyən-

---

[4] Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurikulum) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Xalq qəzeti, 2006, 30 oktyabr

[5] Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında. http://www.e-qanun.-az/framework/13540

[6] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. Xalq qəzeti, 2013, 24 oktyabr

ləşdirməyi, biliyi realizə etmək üçün konkret əməli tədbirlər həyata keçirməyi və nəticədə təcrübə qazanmağı səriştəliliyin struktur komponentləri kimi şərh edirlər.

Səriştəni insana məxsus olan ən mühüm inteqral keyfiyyət kimi səciyyələndirən tədqiqatçılar bu keyfiyyəti üç aspektdə öyrənməyi vacib hesab edirlər: 1) səriştəliliyin məzmunu; 2) səriştəliliyin kəmiyyəti; 3) səriştəliliyin çoxfunksiyalılığı.

Ümumiyyətlə, səriştəliliyin mənasına görə iki modeli var:1) müxtəlif səviyyəli səriştəlilik; 2) bir səviyyəli səriştəlilik.

Səriştənin müxtəlif səviyyəli modeli onun həyata keçirilməsi üçün müxtəlif tələblərin həyata keçirilməsini tələb edir. Hər bir tələbin yerinə yetirilməsi ümumi səriştənin bir komponentidir, bir səviyyəsidir, ayrılıqda götürdükdə isə onun özü də bir səriştədir. Bir səviyyəli səriştə modeli isə sadə davranış standartlarını əhatə edir. Pedaqoji ədəbiyyatda səriştəliliyin əsasən üç formasından bəhs edilir:1) tədris-idraki; 2) informasiya; 3) kommunikativ.

Tədris-idraki səriştəlilik zəruri bilik, bacarıq vərdiş və dəyərləri fəaliyyət kriteriyalarına uyğun tətbiq etməyi, uğur qazanmanın yollarını bilməyi, qeyri-adi situasiyalarda problemi həll etmək məqsədilə innovativ, statistik və digər idrak metodlarından istifadə etməyi, ölçmə və dəyərləndirmə bacarıqlarına malik olmağı nəzərdə tutur.

İnformasiya səriştəliliyi – insanın müstəqil məlumat axtarmaq, topladığı məlumatları analiz-sintez etmək, zəruri informasiyaları digərlərinə ötürmə qabiliyyətidir.

Kommunikativ səriştəlilik ətrafdakı insanlarla ünsiyyət qurmaq, qrupla işləmək bacarığına malik olmaq deməkdir.

Elmi-pedaqoji ədəbiyyata istinadən peşə səriştəliliyin 6 tipi fərqləndirilir:1) fərdi səriştəlilik; 2) işgüzar səriştəlilik); 3) idarəetmə səriştəsi; 4) liderlik səriştəsi; 5) funksional səriştəlilik; 6) əsas səriştələr.

Azərbaycan pedaqoji elmində (A.Mehrabov, Ə.Ağayev, Ə.Paşayev, F.Rüstəmov, M.İlyasov, Ə.Abbasov və b.) səriştəli yanaşmanın iki baza anlayışından – "səriştə" və "şəriştəlilik" anlayışından istifadə olunur. Bəzi tədqiqatçılar və praktik müəllimlər "səriştəliliyi" bilik və bacarıqların inteqrasiyası və dəyişən cəmiyyətin tələbatına uyğun istifadəsini nəzərdə tutursa, digərləri "səriştəni" insanın hər

hansı bir sahədə dərin və hərtərəfli biliyi və nüfuzu kimi izah edirlər. Psixoloq alimlər – R.Əliyev, H.Əlizadə səriştəliliyi güc və inam mənasını verən psixososial keyfiyyət kimi şərh edirlər.

Səriştəli valideynlərin hazırlanması problemi ilk dəfə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) əsaslandırılmışdır. Strategiyanın "Strateji hədəflər və tədbirlər" adlı 7-ci maddəsində səriştəyə əsaslanmaqla yaradılacaq şəxsiyyətyönümlü təhsilin məzmununda "uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının hazırlanması"[7] vacib hesab olunur.

Beləliklə də, "səriştəli valideyn" anlayışı pedaqoji termin kimi elmi dövriyyəyə daxil edilir. Kiçikyaşlı məktəblilərin valideynlərinin böyük əksəriyyətinin pedaqoji səriştəsi olmadığından uşaqların təhsil-tərbiyəsində və məktəb-valideyn əməkdaşlığında müəyyən problemlərlə üzləşməli olurlar. Problemin kökündə valideynlərinin pedaqoji bacarıq və təcrübəsinin yetərli olmaması dayanır.

Valideynlərin pedaqoji səriştəliliyinin inkişafı məqsədilə aşağıdakı prinsiplərin nəzərə alınması zəruri hesab olunur:

1) müəllimlərin valideynlərlə dostluq münasibəti;
2) fərdi yanaşma;
3) valideynlərə məsləhət vermək deyil, əməkdaşlıq etmək;
4) dinamiklik.

Digər təsnifatlar da vardır ki, onların da əksəriyyətini bir-birini təkrar edir.

"Səriştəli valideyn" anlayışı yeni olduğundan ona yanaşmalar da müxtəlifdir. Səriştəli valideyn anlayışı pedaqoji dövriyyəyə daxil edilənə kimi pedaqoji-psixoloji tədqiqatlarda daha çox yaxşı valideyn sözündən istifadə olunurdu. Müasir dövrdə də yaxşı valideyn sözü "səriştəli valideyn" anlayışının sinonimi kimi istifadə olunur. Yaxşı valideyn kimdir? sualına verilən cavablar da müxtəlifdir və zaman-zaman ona yanaşmalar dəyişib. Uşağını sevmək yaxşı valideyn olmanın əsas inteqral keyfiyyəti kimi yanaşmalarda xüsusi yer tutur.

---

[7] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. Xalq qəzeti, 2013, 24 oktyabr

Uşaqları sevmək təbii bir hissdir, əksər valideynlərə məxsusdur, amma onlara diqqət və qayğı göstərmək, təhsil-tərbiyə vermək, cəmiyyət üçün yararlı vətəndaşlar kimi yetişdirmək xüsusi səriştə (ağıl, müdriklik, bacarıq) tələb edir. Valideynlər uşaqla ünsiyyət qurmağı, əməkdaşlığı, ailədə inkişafetdirici və tərbiyəedici mühit qurmağı, uşaq oyunları və yaradıcılıq məşğələlərini təşkil etməyi bacarmalı, övladının düzgün inkişafını təmin etmək məqsədilə praktiki biliklərə malik olmalıdır.

Fəslin *"Valideynlərin pedaqoji səriştəliliyinin inkişafı probleminin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu"* adlı ikinci paraqrafında valideynlərin pedaqoji maarifləndirilməsi ailənin, məktəbin və ictimaiyyətin həyata keçirdiyi vahid pedaqoji prosesin vacib tərkib hissəsi kimi təhlilə cəlb edilir, problemlə bağlı elmi-pedaqoji ədəbiyyat araşdırılır və hər birinə münasibət bildirilir. Son yüz ildə valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi istiqamətində görülən işlər mərhələli şəkildə təhlil və tədqiq olunur.

20-ci illərdə valideynlərdən oxumağı və yazmağı bacarmaq, uşaqların məktəbə gəlməsinə kömək etmək, onların ailədə təhsillə bağlı apardığı təcrübələrə və layihələrə yardımçı olmaq tələb edilirdisə, 30-cu illərdə valideynlərin uşaqların tərbiyəsində məsuliyyəti və vəzifələri xeyli artırıldı.

40-60-cı illərdə valideynlərin pedaqoji maariflənməsində N.K.Krupskayanın, A.S.Makarenkonun, V.A.Suxomlinskinin nəzəri fikirləri öyrənilir, M.Muradxanov, Ş.Ağayev, Ə.Əlizadə, S.Axundov, Q.Məmmədov və İ.Vəlixanlının tədqiqatlarına münasibət bildirilir. Paraqrafda 70-80-ci illərdə valideynlər arasında pedaqoji biliklərin yayılmasının məzmunu və metodologiyasında aparılan dəyişikliklərin səbəbləri əsaslandırılır, valideynlərdə pedaqoji mədəniyyətinin formalaşdırılmasının nəzəri və praktik məsələlərinə həsr olunmuş tədqiqatlar (Ə.Ağayev, Y.Talıbov, S.Quliyev, X.Fətəliyev, A.Abbasov, H.Əlizadə, R.Əliyev, O.Vəliyev, H.Əliyev, S.Axundov və s.) tədqiq və təhlil edilir.

Fəslin *"Ailədə kiçik məktəb yaşlı uşaqların təhsil- tərbiyəsində səriştəli valideynin rolu"* adlı üçüncü paraqrafında əsaslandırılır ki, ailə insanlar arasındakı qarşılıqlı münasibətləri əks etdirən mənəvi-psixoloji və sosial birliyin spesifik formasıdır. Ailə ənənələrinin, ailə

əxlaqının psixoloji cəhətdən dəyişməsi uzun sürən, ziddiyyətli və mürəkkəb bir prosesdir. Ailə tərbiyə institutu olaraq məktəbli şəxsiyyətinin formalaşmasında əsas və həlledici rola malikdir.

Ailə tərbiyəsinin məqsədi uşaqların intellektual və yaradıcı qabiliyyətlərini inkişaf etdirməkdən, onlarda əxlaqi, estetik, fiziki və əməksevərlik kimi keyfiyyətlər formalaşdırmaqdan, həyatda qarşılaşacaqları çətinlikləri və maneələri aradan qaldırmağa kömək etməkdən ibarətdir. Müasir dövrdə cəmiyyət, ailəvə fərdin qarşılıqlı münasibətlərində fərqli situasiya yaranıb. Əgər əvvəllər cəmiyyət, ailə və fərd iyerarxiyasında piramidanın yuxarı hissəsində cəmiyyət, aşağı hissəsində isə fərd dayanırdısa, indi mövqelər tamamilə dəyişib. Cəmiyyətdə sosial bərabərsizliyin artması uşaqların ailə tərbiyəsinə mənfi təsir göstərib.

Paraqrafda uşaqların ailə tərbiyəsinə mənfi təsir göstərən amillər və onları doğuran səbəblər səciyyələndirilmişdir. Birinci amil müasir dövrün sosial-iqtisadi problemləriilə bağlıdır. Bu amilin formalaşması bir neçə səbəblə bağlıdır:

1) demoqrafik vəziyyət;
2) müasir ailənin iqtisadi vəziyyətinin pisləşməsi;
3) ailənin strukturunun dəyişilməsi;
4) valideynlərin öz uşaqlarını atması;
5) ailənin reproduktiv funksiyasının azalması;
6) ailənin sosial funksiyasında baş verən dəyişikliklər;
7) insanların daimi yaşayış yerlərini məcburi tərk etməsi;
8) ailədə qadınlara və uşaqlara qarşı zorakılığın artması.
9) ailə modelinin dağılmasına hesablanmış təzyiqlər.

Uşaqların tərbiyəsində yol verilən nöqsanların yaranmasına təsir göstərən ikinci amil müasir ailənin psixoloji və pedaqoji problemləri ilə bağlı olduğundan bu paraqrafda həmin məsələninin izahına geniş yer verilmişdir ki, burada öncə ailə tərbiyəsinin və ailə dəyərlərinin zaman-zaman məzmununda baş verən dəyişikliklər təhlil olunur, elmi yanaşmaların məzmununa aydınlıq gətirilir, səriştəsiz valideynlərin uşaqların tərbiyəsində yol verdiyi nöqsanlar xarakterinə görə qruplaşdırılır.

Dissertasiyanın ikinci fəsli **“Səriştəli valideyn hazırlığının imkan və yolları”** adlanır. Fəslin *“Valideynlərdə pedaqoji səriştəlili-*

*yin formalaşdırılması modeli"* adlı ilk paraqrafında valideyn-müəllim əməkdaşlığının müxtəlif aspektləri təhlil edilir, bu əməkdaşlığın səmərəli təşkilinin valideynlərdə pedaqoji səriştənin formalaşdırılmasında mühüm rol oynadığı əsaslandırılır, əməkdaşlığın aşağıdakı modellərinə münasibət bildirilir: 1) "məktəb sosial mühitdə təhsil mərkəzidir" – modeli; 2) ailədə təhsil-tərbiyə mühitinin yaxşılaşdırılmasına, valideyn-müəllim əlaqələrin genişlənməsinə təsir göstərən ənənəvi məktəb modeli;

3) "üfüqi xətlər" modeli; 4) "sosial mühitə nəzarət məktəbi" modeli; 5) əməkdaşlığın demokratik modeli; 6) demokratikliyə, humanistliyə və müasirliyə əsaslanan model.

Əgər 30-40 -cı illərdə məktəbin ailəyə təsir imkanları böyük idisə, 50-ci illərdə bu təsir tədricən azalmağa başladı. Məktəbin ailəyə təzyiqi bərabər hüquqlu subyektlərin əməkdaşlığına çevrildi. Həm məktəbdə, həm də ailədə uşaqların tərbiyəsində pedaqoji-psixoloji tələblər önə çəkildi. Şagirdləri inzibati yollarla təhsilə cəlb etmək əvəzinə onların təşəbbüskarlığının, yaradıcı imkanlarının artması və intizamlı olmaları üçün mühitin yaradılması ideyası irəli sürüldü.

XX əsrin 60-70-ci illərində ailə ilə məktəbin qarşılıqlı əlaqəsində demokratikləşdirmə prosesi davam etdirildi. Bu, hər şeydən əvvəl yeni insan – hərtərəfli və ahəngdar inkişaf etmiş məktəbli şəxsiyyəti formalaşdırmaq konsepsiyası ilə bağlı idi. Həmin dövrdə şagirdlərdə həyat və ictimai fəallığa vətəndaş münasibətlərinin formalaşdırılması önə çəkildi. Ailə məktəb əlaqələrinin forma və yolları təkmilləşdirildi. Valideynlər arasında təhsillilik səviyyəsinin yüksəlməsi valideyn-müəllim əməkdaşlığına yeni məzmun və istiqamət verdi.

XX əsrin 80-90-cı illərinin ikinci yarısında cəmiyyətdə islahatlar nəticəsində yaranan təhsil sistemində dəyişikliklər başladı. Nəzəriyyədə və praktikada müəllim, valideynlər arasında əməkdaşlığın forma və metodları təkmilləşdirildi, məktəbin ailə ilə işinin məzmunu müəyyənləşdirildi, valideynlərdə pedaqoji mədəniyyəti inkişaf etdirmək üçün diferensial yanaşma ideyası irəli sürüldü. Valideyn qrupları arasında pedaqoji maarifləndirmənin nəzəri müddəaları dəqiqləşdirildi, ailədaxili münaqişələrin səbəbləri araşdırıldı. Bunlarla yanaşı, paraqrafda əməkdaşlığın müxtəlif forma (ənənəvi və qeyri-ənənəvi), metod, prinsip və komponentləri haqqında ətraflı məlumat verilir,

müəllim-valideyn əməkdaşlığının səmərəliliyinin aşağıdakı şərtləri müəyyənləşdirilir:

1) müəllimin valideynlərlə qarşılıqlı əlaqəsinin formalaşdırılması zəruriliyinin tədris prosesinin məqsədi və meyarı kimi dərk etməsi; 2) əməkdaşlıq prosesində valideynlərə fərdi yanaşılması, yaradıcılıq nümayiş etdirilməsi, görüşlərdə dialoqa üstünlük verilməsi;

3) müəllimin peşəkar ünsiyyət bacarığına malik olması; 4) müəllimin empatiya və refleksiya qabiliyyətinə malik olması.

Paraqrafda müəllim-valideyn əməkdaşlığının modelləşdirilməsinin mürəkkəb bir proses olması əsaslandırılır, məqsəd, məzmun, təşkilati-prosessual və nəticə mərhələləri onun struktur elementləri kimi təhlil edilir, pedaqoji prosesdə müəllim-valideyn əməkdaşlığına şəxsiyyətlərarası münasibətlər kimi baxılır.

*"Valideynlərdə pedaqoji səriştəliliyin formalaşdırılmasında ümumtəhsil məktəbinin rolu"* adlı ikinci paraqrafda əsaslandırılır ki, XX əsrin 90-cı illərinin əvvəllərində ümumtəhsil məktəbinin cəmiyyətin tələbatlarına cavab verə bilməməsi ilə bağlı fikirlər meydana gəldi. Mədəni təfəkkürün formalaşmasına xidmət edən təhsil nəzəriyyələri pedaqoji prosesin çox ciddi idarə edilməsini, təlim prosesində müəllimin üstün mövqeyə malik olmasını nəzərdə tutduğuna görə, təlim prosesində şagirdlərin müstəqilliyinə ciddi fikir verilmirdi. Bu da təbii ki, nəticədə intellektualizmə gətirib çıxarırdı.

Digər tərəfdən, şagirdlərin inkişafı dövlətin təhsil standartlarından, ikinci dərəcəli materiallarla yüklənmiş fənn proqramlarından geri qalırdı. Məktəb təhsilinin məzmununun ağır olması uşaqların psixikasında gərginlik yaratmaqla bərabər, həm də şagird şəxsiyyətinin inkişafını ləngidirdi. Nəticədə şagird öz maraq və qabiliyyətlərini, daxili potensialını realizə edə bilmirdi.

Məktəbi innovativ təhsil müəssisəsinə çevirmək istəyənlər belə hesab edirdilər ki, şagirdlər məktəb təhsilinin köməyi ilə sosial həyata adaptasiya olmalıdır ki, burada da valideynlər mühüm rol oynayırlar.

Valideynlərdə pedaqoji səriştəliliyinin inkişafını təmin edən müxtəlif formalar mövcuddur. Məktəblərdə ənənəvi və yeni, kollektiv-qrup və fərd-kollektiv formalarından istifadə olunur. Məktəb-ailə əməkdaşlığında tətbiq edilən yeni texnologiyalarda dialoqa, yaradıcı,

problemli və məlumatverici ünsiyyətə üstünlük verilir. Valideyn-müəllim əməkdaşlığının səmərəlilik şərti, təbii ki, bu əlaqənin keyfiyyətini müəyyən edən qanunauyğunluqların müəyyən edilməsi ilə bağlıdır. Bu qanunauyğunluqlar həm ümumi (müəllim-valideyn əməkdaşlığının bütün aspektlərini əhatə edən), həm də xüsusi (müəllim-valideyn əməkdaşlığının yalnız bir aspektlərini əhatə edən) ola bilər. Paraqrafda valideyn – müəllim əməkdaşlığının ümumi qanunauyğunluqları aşağıdakı kimi müəyyənləşdirilir:

1) valideyn-müəllim əməkdaşlığının məqsədi qanunauyğunluğu;
2) valideyn-müəllim əməkdaşlığının məzmun qanunauyğunluğu;
3) valideyn-müəllim əməkdaşlığının keyfiyyət qanunauyğunluğu;
4) valideyn-müəllim əməkdaşlığının metodlar qanunauyğunluğu;
5) valideyn-müəllim əməkdaşlığının idarəedilmə qanunauyğunluğu.

Valideynlərin təhsil sahəsində səriştəliliyi pedaqoji fəaliyyətinin istiqamətləri, özünüdərkin və intellektual qabiliyyətin inkişafı, sosial əlaqələrin inkişafı, kompüter bacarığının və kiçik məktəbyaşlı övladları ilə bağlı ilkin qənaətin formalaşması ilə bağlıdır. Burada əsas məsələ uşaqlarda özünün təkrar olunmazlığına inam və böyüklərə ehtiram hissinin formalaşması ilə bağlıdır. Uşaqlarda bu hisslərin formalaşdırılması gələcəkdə onların daha böyük uğur qazanmasının şərtidir.

Valideynlərin təlimlə bağlı səriştələrinə uşaqların həftəlik fəaliyyətini planlaşdırması, uşaq tərəfindən yerinə yetirilmiş tapşırıqları dəyərləndirilməsi və nəticələrin ümumiləşdirməsi daxildir.

Valideyn-müəllim əməkdaşlığında müvəffəqiyyət qazanmaq üçün hər bir valideynə və onun övladına fərdi yanaşılmalıdır. Unutmaq olmaz ki, bəzi valideynlər məktəbin tədbirlərinə sevinclə, bəziləri isə tərəddüdlə gəlir. Müəllimin səyi nəticəsində onlar tədbirdə vahid kollektiv kimi iştirak etməlidir.

Müəllimlər öz şagirdlərinin ailə mühitini, valideynlərin peşə istiqamətini və pedaqoji səriştəliliyinin səviyyəsini öyrənmək üçün aşağıdakı iş formalardan istifadə etməlidirlər:1) şagirdlərin ailəsinin öyrənilməsi; 2) sinif valideyn komitəsinin işi; 3) sinif və ümummək-təb valideyn iclasları; 4) konfrans və disputlar; 5) açıq qapı günləri; 6) sual-cavab gecələri; 7) valideynlərlə fərdi iş; 8) şagirdlərin

valideynləri ilə qeyri-ənənəvi əlaqə (tematik məsləhətlər, valideyn oxuları, valideyn gecələri; videokorreksiya) metodu.

Fəslin sonuncu paraqrafı *"Valideynlərdə pedaqoji səriştəliliyin inkişafının monitorinqi"* adlanır.

Burada valideynlərdə pedaqoji səriştəliliyin formalaşdırılması ilə bağlı irəli sürülən təklif və tövsiyələrin səmərəlilik dərəcəsi eksperimental yolla əsaslandırılmışdır.

Səriştəliliyin inkişafı ilə bağlı üç səviyyə müəyyənləşdirildi:1) aşağı; 2) orta; 3) yüksək.

Eksperimentə cəlb olunan valideynlərin pedaqoji səriştəliliyinin səviyyəsini müəyyənləşdirmək üçün "Valideynin pedaqoji səriştəyə malik olması vacibdirmi?" sualına cavab vermələrini xahiş etdik. Valideynlərin verilən suala münasibəti aşağıdakı kimi olmuşdur:

**Cədvəl 2.3.1**
**Valideynlərin verilən suala münasibəti**

| Valideyn səriştəliliyin səviyyələri | Sualların cavabları | | | |
|---|---|---|---|---|
| | Nəzarət | | Eksperimental | |
| | sayı | faizlə (%) | sayı | faizlə (%) |
| aşağı | 143 | 63,8 % | 158 | 67 % |
| orta | 57 | 25,5 % | 55 | 23 % |
| yüksək | 24 | 10,7 % | 23 | 10 % |
| Cəmi | 224 | 100 | 236 | 100 % |

Suallara alınan cavabların təhlili göstərdi ki, tədqiqata cəlb edilən (həm kontrol, həm də eksperimental qruplarda) valideynlərdə pedaqoji səriştəliliyin səviyyəsi çox aşağıdır.

Eksperimentin ikinci mərhələsində biz hədəfləri müəyyən etməli olduq. Öyrənilən problemin nəzəri əsasları və konkret texnologiya işlənib hazırlandı. Valideynlərin pedaqoji səriştəsinin müəyyən edilməsində aşağıdakı metodika səmərəli hesab olundu.

**Cədvəl 2.3.2**

**Valideynlərin pedaqoji səriştəsinin müəyyən edilməsi metodikası**

| komponentlər | komponentlərin məzmunu | diaqnostika üsulları |
|---|---|---|
| qnostik | valideynlərin kiçikyaşlı məktəblilərin təhsil-tərbiyəsi ilə bağlı pedaqoji və psixoloji biliyi | "Valideyn səriştəsinin qiymətləndirilməsi" anketi |
| fərdi motivasiya | uşaqlarının şəxsiyyət kimi formalaşmasında böyük maraq göstərən valideynlərin bir-birinə və uşaqlara qarşı səmimi olmaması | Tədqiqatçı tərəfindən tərtib edilən test |
| kommunikativ | valideynlərin praktik, təşkilati, ünsiyyət və tərbiyə bacarıqları | Tədqiqatçı tərəfindən tərtib edilən test |

Bu metodika ilk baxışdan sadə görünsə də valideynlərdə pedaqoji səriştənin səviyyəsini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Valideynlərin kiçikyaşlı məktəblilərin təhsil-tərbiyəsi ilə bağlı bilik və təcrübəsini müəyyənləşdirmək məqsədilə müxtəlif anket sorğularından istifadə etməli olduq. Anket sorğusuna aşağıdakı sualları daxil edilmişdi:

1. Uşaqların tərbiyəsində məktəblə valideynlərin əməkdaşlığını zəruri hesab edirsinizmi?
2. Uşaqlarınızın tərbiyəsi və inkişafı haqqında hansı formada məlumat almaq istəyərdiniz?
3. Sizin fikrinizcə, uşaqların tərbiyəsinə ən çox kimin təsiri var?
4. Uşaqlarınızın inkişafı və tərbiyəsi ilə bağlı öz biliklərinizi yetərli hesab edirsinizmi?
5. Uşağınızın təlimi, tərbiyəsi və inkişafı ilə bağlı hansı məsələlərə dair məsləhətlər almaq istəyərdiniz?
6. Uşağın yaş xüsusiyyətlərinə uyğun olaraq onun tərbiyəsi və inkişafı ilə bağlı hansı mənbələrdən məlumat alırsınız?
7. Uşaqlarla ünsiyyət qurmaqda pedaqoji və psixoloji bilikləri-

nizin mahiyyətini necə xarakterizə edərdiniz?

"Uşaqların tərbiyəsində məktəbin valideynlərlə əməkdaşlığını zəruri hesab edirsinizmi? sualına kontrol qrup kimi müəyyənləşdirdiyimiz 224 nəfər valideyndən 97 nəfəri (43,3%) "bəli", 66 nəfəri (29,5%) "qismən", 61 nəfəri (27,2%) "yox", eksperimental qrup kimi müəyyənləşdirdiyimiz 236 nəfərdən 107 nəfəri (45,3%) "bəli", 79 nəfəri (33,5 %) "qismən", 50 nəfəri (21,2%)"yox" deyə bildirmişdir.

"Uşaqlarınızın tərbiyəsi və inkişafı haqqında hansı formada məlumat almaq istərdiniz? sualına kontrol qrupda 224 nəfər valideyndən 85 nəfəri (38%) məsləhət, 22 nəfəri (9,8%) elmi ədəbiyyat oxumaq, 14 nəfəri (5,9%) seminar, 91 (40,6%) nəfəri valideyn iclasları,13 nəfəri (5,8%) praktik təlim (treninq), eksperimental qrupda 236 nəfərdən 88 nəfəri (37,3%) məsləhət, 29 nəfəri (12,3%) elmi ədəbiyyat oxumaq, 13 nəfəri (5,8%) seminar, 90 (38,1%) nəfəri valideyn iclasları, 15 nəfəri (6,4 %) praktik təlim (treninq) formasına üstünlük vermişdir

"Sizin fikrinizcə, uşaqların tərbiyəsinə ən çox kimin təsiri var?" sualına kontrol qrupda 224 nəfər valideyndən 112 nəfəri (50%) müəllimin, 68 nəfəri (30,4%) valideynlərin, 44 nəfəri (19,6%) hər ikisinin, eksperimental qrupda 236 nəfərdən102 nəfəri (43,2%) müəllimin, 86 nəfəri (36,5%) valideynlərin, 48 nəfəri (20,3%) hər ikisinin təsiri olduğunu qeyd etmişlər. Hər iki qrupda uşaqların tərbiyəsində müəllimin roluna üstünlük verilsə də, müəllimin valideynlərlə qarşılıqlı əlaqəsi, onun ailəyə pedaqoji təsir imkanları nəzərə alınmır.

"Uşaqlarınızın inkişafı və tərbiyəsi ilə bağlı öz biliyinizi yetərli hesab edirsinizmi? sualına valideynlərin cavabı səmimi olmuşdur. Kontrol qrupda 224 nəfər valideyndən 28 nəfəri (12,5%), eksperimental qrupda 236 nəfərdən isə 32 nəfəri (13,55%) uşaqların tərbiyəsi ilə bağlı biliklərinin yetərli olduğunu bildirmişdir. Analoji olaraq kontrol qrupda 112, eksperimental qrupda isə 116 nəfər valideyn uşaqların tərbiyəsi ilə bağlı zəruri bilik və bacarığa malik olmadığını etiraf etmişlər.

"Uşağınızın təlimi, tərbiyəsi və inkişafı ilə bağlı hansı məsələlərə dair məsləhətlər almaq istərdiniz?" sualına kontrol qrupda 224

nəfər valideyndən 122 nəfəri (50%) uşağın əqli inkişafı, 88 nəfəri uşağın uğurları (39,3%), 11 nəfəri (4,9%) psixofiziki xüsusiyyətləri,13 nəfəri (5,8%) ünsiyyət bacarığı, eksperimental qrupda 236 nəfərdən isə116 nəfəri (49,1%) uşağın əqli inkişafı, 92 nəfəri uşağın uğurları (39,3%), 13 nəfəri (5,5 %) psixofiziki xüsusiyyətləri,15 nəfəri (6,4%) ünsiyyət bacarığı ilə bağlı məlumat almaq istədiyini bildirmişdir.

*"Uşağın yaş xüsusiyyətlərinə uyğun olaraq onun tərbiyəsi və inkişafı ilə bağlı hansı mənbələrdən məlumat alırsınız?"* sualına kontrol qrupda 224 nəfər valideyndən 179 nəfəri (79,9%) müəllimlərdən, 28 nəfəri (12,5%) uşağın dostlarından və sinif yoldaşlarından, 6 nəfəri (2,7%) pedaqogika və psixologiyaya aid kitablardan, 11 nəfəri (4,9%) media və internetdən, eksperimental qrupda 236 nəfərdən isə 188 nəfəri (79,7%) müəllimlərdən, 27 nəfəri (11,4%) uşağın dostlarından və sinif yoldaşlarından, 8 nəfəri (3,4%) pedaqogika və psixologiyaya aid kitablardan, 13 nəfəri (5,5%) media və internetdən məlumat aldığını bildirmişdir.

Nəticələrin təhlili zamanı məlum olmuşdur ki, 460 nəfər valideyndən 367 nəfəri (80,8%) uşağının yaş xüsusiyyətlərinə uyğun olaraq onun tərbiyəsi və inkişafı ilə bağlı sinif müəllimindən aldıqları məlumatı daha etibarlı hesab edirlər. Sorğu zamanı o da məlum oldu ki, ibtidai sinif şagirdləri yuxarı siniflərə keçdikcə valideynlərin müəllimlərlə əməkdaşlığı zəifləyir.

"Uşaqlarla ünsiyyət qurmaqda pedaqogika və psixologiya sahəsindəki biliklərinizin mahiyyətini necə xarakterizə edərdiniz?"- sualına kontrol qrupda 224 nəfər valideyndən 49 nəfəri (21,9%) inkişaf və təhsil haqqında bildiklərim uşaqlarla səmimi ünsiyyət qurmağıma kömək edir (qaneedicidir), 52 nəfəri (23,2%) kiçik yaşlıların təhsili və inkişafı ilə bağlı məlumatım çox olsa da, ünsiyyət prosesində onları tətbiq edə bilmirəm (çətinlik çəkirəm), 46 nəfəri (20,5%) mən xüsusi pedaqoji-psixoloji biliyi olmayan valideynlər tərəfindən böyüdülmüşəm, hesab edirəm ki, mənim uşaqlarımda da hər şey qaydasındadır (ehtiyac hiss etmirəm), 77 nəfəri (34,4%) uşaqla nə edəcəyimi bilmirəm, mənə kim kömək etməlidir? (köməyə ehtiyacım var), eksperimental qrupda 236 nəfərdən isə 54 nəfəri (22,9%) inkişaf və təhsil haqqında biliyim uşaqlarla səmimi ünsiyyət qurmağıma

kömək edir (qaneedicidir), 59 nəfəri (25%) kiçikyaşlıların təhsili və inkişafı ilə bağlı məlumatım çox olsa da, ünsiyyət prosesində onları tətbiq edə bilmirəm (çətinlik çəkirəm), 48 nəfəri (20,3%) mən xüsusi pedaqoji-psixoloji biliyi olmayan valideynlər tərəfindən böyümüşəm, hesab edirəm ki, mənim uşaqlarımda da hər şey qaydasındadır (ehtiyac hiss etmirəm), 75 nəfəri (31,8%) uşaqla nə edəcəyimi bilmirəm, mənə kim kömək etməlidir? (köməyə ehtiyacım var) cavabını vermişdir. 460 nəfər valideyndən 103 nəfəri (22,4%) zəruru pedaqoji səriştələrə malik olduğunu bildirmişdir.

Heç bir pedaqoji səriştəsi olmayan, ailədəki tərbiyə ənənələrinə əsaslanan 94 nəfər (20,4%) valideyn köməyə ehtiyacı olmadığını bildirdiyi halda, 152 nəfər (67,8%) valideyn uşaqlarla ünsiyyət qurmaqda çətinlik çəkdiyini, öyrənməyə, təcrübə toplamağa ehtiyacı olduğunu səmimi etiraf etmişdir. Apardığımız müşahidələr onu deməyə əsas verir ki, yalnız eksperimentə cəlb etdiyimiz valideynlər deyil, ümumiyyətlə, kiçikyaşlı məktəblilərin valideynlərin böyük əksəriyyəti öz uşaqları ilə ünsiyyət qurmaqda çətinlik çəkirlər.

Beləliklə, anket sorğusunun cavablarının təhlili onu göstərir ki, valideynlərin böyük əksəriyyətinin öz uşaqlarının təlimi, tərbiyəsi və inkişafı ilə bağlı bilikləri yetərli deyil, onlar zəruri pedaqoji səriştəyə malik deyillər.

Eksperimental qruplarda diaqnostik yoxlamadan sonra kiçikyaşlı məktəblilərin valideynlərində pedaqoji səriştələrin inkişafı ilə bağlı proqram hazırlamağı vacib hesab etdik. Proqram valideynlərdə uşaqlarının təhsili, tərbiyəsi və inkişafı ilə bağlı zəruri məsələləri (qnostik, fərdi motivasiya, kommunikativ) əhatə edirdi.

Hesab etdik ki, eksperimental qrupda həvəslə iştirak edən 236 nəfər valideyn həmin proqramı mənimsəməklə kiçik yaşlı məktəblilərin təhsil-tərbiyəsi və inkişafı ilə bağlı kifayət qədər bilik alar, təcrübə qazanar, ailədə bir-birinə və uşaqlara qarşı səmimi olar, praktik, təşkilati, ünsiyyət və tərbiyə bacarıqlarına yiyələnmiş olarlar. Bu məqsədlə tərəfimizdən kiçikyaşlı məktəblilərin valideynlərinin pedaqoji səriştəsinin inkişafı üçün nəzərdə tutulan təlim proqramı hazırlandı.

Kiçikyaşlı məktəblilərin valideynlərində pedaqoji səriştəliliyin formalaşdırılması proqramının həyata keçirilməsindən sonra pedaqoji

səriştəliliyin formalaşma səviyyəsini təkrar yoxlamalı olduq. Kontrol və eksperiment qruplarında kontingent eyni olduğu kimi, verilən suallar da eyni idi.

**Cədvəl 2.3.11**

**Uşaqların tərbiyəsində məktəbin və valideynlərlə əməkdaşlığını zəruri hesab edirsinizmi?- sualına valideynlərin münasibəti**

| Cavablar | Sorğuda iştirak edənlərin sayı | | | |
|---|---|---|---|---|
| | kontrol | faizlə (%) | eksperimental | faizlə (%) |
| bəli | 100 | 44,6 | 178 | 75,4 |
| qismən | 76 | 34 | 58 | 24,6 |
| yox | 48 | 21,4 | - | - |
| Cəmi | 224 | 100 | 236 | 100 |

Cədvəldən də göründüyü kimi, "Uşaqların tərbiyəsində məktəbin valideynlərlə əməkdaşlığını zəruri hesab edirsinizmi? – sualına kontrol qrupda 224 nəfər valideyndən 100 nəfəri (44,6 %) "bəli", 76 nəfəri (34%) "qismən", 48 nəfəri (21,4%) "yox", eksperimental qrupda 236 nəfərdən 178 nəfəri (75,4%) "bəli", 58 nəfəri (24,6 %) "qismən" deyə bildirmişdir. Diqqət yetirsək görərik ki, kontrol qrupda ilkin diaqnostikadan fərqli olaraq ikinci yoxlamada "bəli" cavabını verənlərin sayı 1,3% artdığı halda, eksperimental qrupda isə müvafiq suala cavab verənlərin sayı 30,1% artmışdır.

"Uşaqlarınızın tərbiyəsi və inkişafı haqqında hansı formada məlumat almaq istərdiniz? sualına kontrol qrupda 224 nəfər valideynlərin cavabında cüzi dəyişiklik olduğu halda, eksperimental qrupda elmi ədəbiyyat oxuyanların sayı 22 nəfərdən (9,8%) 54 nəfərə (22,9%), müxtəlif seminarlarda iştirak edənlərin sayı 13 nəfərdən (5,8%) 44 nəfərə (18,6%), praktik təlimdə (treninq) iştirak edənlərin sayı 15 nəfərdən (6,4 %) 49 nəfərə (20,8%) yüksəlmişdi. Özünütəhsillə məşğul olan valideynlərin sayında xeyli artım olmuşdu.

"Sizin fikrinizcə, uşaqların tərbiyəsinə ən çox kimin təsiri var?" sualına kontrol qrupda 224 nəfərdən valideyn-müəllim əməkdaşlığına üstünlük verənləri sayı 44 nəfərdən (19,6%) 58 nəfərə (25,9%) yüksəlmişdisə (cəmi 6,3%), eksperimental qrupda 48 nə-

fərdən (20,3%) 176 nəfərə (74,6%) yüksəlmişdi. İlkin diaqnostik yoxlamaya nisbətən artım 54,3% olmuşdur.

Uşaqlarınızın inkişafı və tərbiyəsi ilə bağlı öz biliklərinizi yetərli hesab edirsinizmi? sualına eksperimental qrupda iştirak edən valideynlərin cavabı xeyli fərqli olmuşdur. Əgər eksperimental qrupun üzvlərindən ilkin diaqnostikada 32 nəfər (13,5%) suala "bəli" cavabını vermişdisə, birillik təlimdən sonra 179 nəfər (75,8%) uşaqlarının inkişafı və tərbiyəsi ilə bağlı öz biliklərini yetərli hesab etmişdir. Bir il müddətində aparılan sistemli iş nəticəsində pedaqoji biliyini yetərli hesab edən valideynlərin sayı 62,3% artmışdır. Kontrol qrupda isə bu dəyişiklik 2,7% olmuşdur.

Uşağınızın təlimi, tərbiyəsi və inkişafı ilə bağlı hansı məsələlərə dair məsləhətlər almaqistərdiniz? Sualına kontrol qrupda valideynlərin cavablarında ciddi dəyişiklik olmamışdır. Eksperimental qrupda isə, əksinə, bir neçə parametr üzrə valideynlərin cavablarında ciddi dəyişiklik olmuşdur. Əgər ilkin diaqnostik yoxlamada eksperimental qrupda 13 nəfər (5,5%) valideyn uşaqları haqqında psixofiziki xüsusiyyətlərə üstünlük verirdisə, ikinci yoxlamada onların sayı 89 nəfər (37,7%) olmuşdur. Uşaqları haqqında psixofiziki xüsusiyyətlərə üstünlük verın valideynlərin sayının 32,2% artması onların təlim məşğələlərində uşağın fiziki, psixi və əqli inkişafının bir-biri ilə sıx bağlı olmasını başa düşmələri ilə bağlıdır. Əgər eksperimental qrupda ilk yoxlamada 15 (6,4%) valideyn uşağının ünsiyyət bacarığına üstünlük verirdisə, eksperimentdən sonra onların sayı 39 nəfər (16,5%) olmuşdur.

Uşağın yaş xüsusiyyətlərinə uyğun olaraq onun tərbiyəsi və inkişafı ilə bağlı hansı mənbələrdən məlumatalırsınız?" sualına ilkin diaqnostika zamanı 8 (3,4%) nəfər valideyn uşağının yaş xüsusiyyətlərinə uyğun olaraq onun tərbiyəsi və inkişafı ilə bağlı məlumatı pedaqoji-psixoloji ədəbiyyatdan öyrəndiklərini bildirirdilərsə, eksperimentdən sonra onların sayı 49 nəfər (20,8%) olmuşdur. Media və internetdən məlumat alanların da sayı 6,8% artmışdır.

Uşaqlarla ünsiyyət qurmaqda pedaqogika və psixologiya sahəsindəki biliklərinizin mahiyyətini necə xarakterizə edərdiniz? sualına eksperimental qrupda 236 nəfərdən ikinci yoxlamada 179 nəfəri (75,8%) inkişaf və təhsil haqqında biliyim uşaqlarla səmimi ünsiyyət

qurmağıma kömək edir (qaneedicidir), 57 nəfəri (24,2%) mən xüsusi pedaqoji-psixoloji biliyi olmayan valideynlər tərəfindən böyümüşəm, hesab edirəm ki, mənim uşaqlarımda da hər şey qaydasındadır (ehtiyac hiss etmirəm) deyə cavab vermişdir. Uşaqları ilə ünsiyyət qurmaqda pedaqogika və psixologiya sahəsindəki biliklərinin yetərli olduğunu deyən valideynlərin sayının 54 nəfərdən 179 nəfərə yüksəlməsi valideynlərlə aparılan bir illik təlim proqramının icrası nəticəsində mümkün olmuşdur.

2020-2021-ci illərdə irəli sürülən texnologiyanın yoxlayıcı eksperimentin köməyi ilə səmərəliliyi təsdiq olundu. Valideynlərdə ailənin, xalqın pedaqoji ənənələri, uşaqların təhsili, tərbiyəsi, təlimi ilə bağlı təsəvvür yaratmağa, valideynlərdə pedaqoji səriştəliliyi artırmağın nəzəriyyə və praktikasını hazırlamağa nail olduq.

Tədqiqat zamanı aşağıkı **nəticələrə** gəlinmişdir:

1. Səriştəlilik insana məxsus olan ən mühüm inteqral keyfiyyətdir. Xüsusi qabiliyyətlər, psixoloji durum, dar ixtisaslaşma, bacarıqlardan kompleks istifadə, sosial və fərdi fəallıq səriştəliliyin əsas göstəriciləri hesab olunur. Müəyyən fəaliyyət sahəsi ilə bağlı zəruri biliklərə malik olmaq, qarşıya məqsəd qoymaq, resursları müəyyənləşdirmək, biliyi realizə etmək üçün konkret əməli tədbirlər həyata keçirmək və nəticədə təcrübə qazanmaq səriştəliliyin struktur komponentləri kimi diqqəti cəlb edir.

2. Müasir dövrdə səriştəli valideyn anlayışının meydana gəlməsi təbiidir. Çünki ümumtəhsil məktəblərində öyrətmə və öyrənmə fəaliyyəti tərbiyəvi fəaliyyəti xeyli üstələmişdir. Təhsil-tərbiyə üçbucağında (məktəb-ailə-ictimaiyyət) valideynlərin rolu və məsuliyyəti xeyli artsa da, kiçikyaşlı məktəblilərin valideynlərinin pedaqoji bilik və bacarıqları (pedaqoji səriştəliliyi) bu tələblərə adekvat deyildir.

3. Valideynlərdə pedaqoji səriştəliliyin inkişaf dinamikası ölkənin iqtisadi inkişafı, ailənin məşğulluq səviyyəsi, cəmiyyətin ümumi mədəni səviyyəsi, informasiya mədəniyyəti, uşaq tərbiyəsi ilə bağlı ailə ənənələri, ailə üzvlərinin təhsillilik səviyyəsi, valideyn nü`fuzu, ailənin iqtisadi durumu, ailənin uğurlu və ya uğrsuz, tam və ya natamam olması ilə şərtlənir.

4. Valideynlərdə pedaqoji səriştənin səviyyəsinin aşağı olmasının səbəblərini aşağıdakı kimi ümumiləşdirmək olar:

-valideynlərdə tərbiyə bacarıqlarının və təcrübənin kifayət qədər inkişaf etməməsi;

-uşaqla məşğul olmağa vaxtlarının olmaması;

-bəzi valideynlərin tərbiyə prosesində müasir yanaşmalara və texnologiyalara istinad etməməsi;

-uşaqların təhsil və tərbiyəsi ilə bağlı funksional məsuliyyətlərini anlamaması;

-valideynlərin öz uşaqlarının yaş və fərdi xüsusiyyətləri ilə bağlı zəruri məlumatlara malik olmaması;

-valideynlərin uşaqların tərbiyəsi ilə bağlı yaranan suallara internetdən, kitabdan və pedaqoji mətbuatdan müstəqil cavab tapa bilməməsi;

- valideyn-məktəb əlaqələrinin klassik formalarının (valideyn iclasları, valideyn universitetləri, müəllimin ailələrə getməsi, valideyn üçün pedaqoji mühazirələrin oxunması və s.) unudulması, yeni formalarının (Valideyn Müəllim Assosiasiyasının) bütün məktəblərdə təşkil edilməməsi və s.

5. Valideynlərdə təhsil, tərbiyə, öyrətmə və özünütəhsillə bağlı pedaqoji səriştələrin inkişafı ata-anaların həmin sahə ilə bağlı bilik, bacarıq, vərdiş və şəxsi keyfiyyətərinin inkişaf səviyyəsindən asılı olması.

6. Valideynlərdə təhsil, tərbiyə, öyrətmə və özünütəhsillə bağlı pedaqoji səriştələrin inkişaf dinamikası məktəb ilə ailənin əməkdaşlığının səviyyəsi ilə şərtlənir.

7. Məktəb və ailənin təhsil-tərbiyə səylərinin inteqrasiyası şagirdlərin əxlaqi-mənəvi və intellektual inkişafının mühüm şərtidir.

8. Valideynlərdə pedaqoji səriştənin formalaşdırılmasına mənfi təsir göstərən amillər:

1) demoqrafik vəziyyət;

2) əksər ailələrin iq0 tisadi vəziyyətinin pisləşməsi;

3) ailənin strukturunun dəyişil- məsi;

4) atılmış uşaqları sayının ildən-ilə artması;

5)ailənin reproduktiv funksiyasının azalması;

6) ailənin sosial fünksiyasında baş verən dəyişikliklər;

7) insanların daimi yaşayış yerlərini məcburi tərk etməsi;

8) ailədə qadınlara və uşaqlara qarşı zorakılığın artması;

9)Azərbaycanda ailə modelinin dağıdılmasına hesablanmış xarici təzyiqlər.

9. Tədqiqatda valideyn – müəllim əməkdaşlığının aşağıdakı ümumi qanunauyğunluqları müəyyənləşdirilir:

1) valideyn-müəllim əməkdaşlığının məqsədi qanunauyğunluğu;

2) valideyn-müəllim əməkdaşlığının məzmun qanunauyğunluğu;

3) valideyn-müəllim əməkdaşlığının keyfiyyət qanunauyğunluğu;

4) valideyn-müəllim əməkdaşlığının metodlar qanunauyğunluğu;

5) Valideyn-müəllim əməkdaşlığının idarəedilmə qanunauyğunluğu.

10. Valideynlərdə pedaqoji səriştəliliyin formalaşdırılmasının səmərəliliyinin şərtlərini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

- müəllimin valideynlərdə pedaqoji səriştəliliyin formalaşdırılmasını tədris prosesinin məqsəd və meyarı kimi qəbul etməsi;

- əməkdaşlıq prosesində müəllimlərin valideynlərə fərdi yanaşması, yaradıcılıq nümayiş etdirməsi, görüşlərdə dialoqa üstünlük verməsi;

-müəllimin valideynlərdə ünsiyyət bacarığını, empatiya və refleksiya qabiliyyətini inkişaf etdirməsi.

Bu məqsədlə də, tədqiqatla bağlı aşağıdakı **təkliflər** məqsədəuyğun sayılır:

1) ümumtəhsil məktəblərinin son siniflərində "Ailə" fənni fakultativ kurs şəklində tədris olunsun (belə bir təcrübə Azərbaycan məktəbində olub);

2) nikaha daxil olanlar üçün "Ailə həyatına hazırlıq" kursları yaradılsın, hər bir oğlan və qızının həmin kursdan keçməsi məcburi olsun;

3) müəllim kadrları hazırlayan ali məktəblərin tədris planında seçmə fənlər blokuna "Ailə pedaqogikası" fənni salınsın. Müəllimin ailə tərbiyəsi ilə bağlı zəruri səriştələrinin olması çox vacibdir.

4) Gənc valideynlər üçün kiçikyaşlı məktəblilərin ailə təhsil-tərbiyəsi ilə bağlı publisistik üslubda, təcrübələr əsasında kitablar hazırlansın və nəşr edilsin;

5) Ailədə uşaqların təhsil-tərbiyəsini, valideyn-müəllim əməkdaşlığını, valideynlərdə pedaqoji səriştəliliyin inkişafını özündə

ehtiva edən sayt yaradılsın, valideynlər suallarının cavablarını həmin saytda tapmayanda onları maraqlandıran suallarla bağlı müraciət edə bilsinlər və s.

**Dissertasiyanın məzmunu nəşr edilmiş aşağıda məqalələrdə öz əksini tapmışdır:**

1. Quliyeva S. Müasir dünyada uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu. Qlobal tendensiyalar və müasir Azərbaycan mövzusunda Respublika elmi konfransı. Mingəçevir, 2018, s.488-490
2. Гулиева С. Влияние сотрудничества семьи и школы на формирование педагогических компетенций у родителей. Москва:Журнал «Современная наука». Серия Гуманитарные науки. 2020 №11, с. 69-74
3. Quliyeva S. Valideynlərdə pedaqoji səriştəliliyin formalaşdırılmasında müəllimin rolu. Bakı, Pedaqoji Universitetin Xəbərləri, humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, 2020, c.68, №3, s.146-153
4. Quliyeva S. Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modeləri. Bakı, Məktəbəqədər və ibtidai təhsil jurnalı, 2020, №3, s. 67-80
5. Quliyeva S. Pedaqoji səriştə və səriştəli valideyn anlayışlarının mahiyyəti və məzmunu. Bakı, Peşə təsili və insan kapitalı elmi-praktiki, metodiki jurnalı, 2020, c 3, №3, s.29-34
6. Quliyeva S. Valideynlərin pedaqoji səriştəliliyinin inkişafı problemlərinin elmi-pedaqoji ədəbiyyatlarda qoyuluşu (1970-2020-cı illər). Bakı, Azərbaycan Respublikasının Təhsil İnstitunun Elmi əsərləri, 2020, c 87, № 5, s. 74-79
7. Quliyeva S. Valideynlərdə pedaqoji səriştəliliyin inkişafı probleminin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu (1920-1960-cı illər). Gəncə: Gəncə Dövlət Universitetinin Xəbərləri, 2020, № 2, s.146-153
8. Quliyeva S. Təhsilin subyekti kimi valideynlərdə kommunikativ səriştənin formalaşdırılması yolları. "Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar" mövzusunda Respublika Elmi Konfransı. Mingəçevir: 2020, 11-12 dekabr, s. 466-468
9. Quliyeva S. Valideyn və müəllim əməkdaşlığının müasir

modellərinin valideynlərdə pedaqoji kompetensiyaların formalaşdırılmasında rolu. "Cəmiyyətə inteqrasiya və sosial adaptasiya" mövzusunda Respublika Elmi Konfrans. Sumqayıt, 2020, 27 noyabr, s.48-52

10. Quliyeva S. Pedaqoji dəstək valideynlərdə pedaqoji səriştənin inkişafının mühüm amili kimi. Həbibinin 550 illiyinə həsr olunmuş beynəlxalq simpozium. Şimali Makidoniya, 2020, s. 185-189

11. Гулиева С. Формы и условия формирования педагогической компетентности у родителей. Scientific practice: modern and classical research methods. Boston, ABŞ, 2021, V 3, s. 24-27

12. Quliyeva S. Kitabi Dede-Korkut destanında ailə eğitimi. Uluslararası Dede Korkut Türk kültürü, tarihi ve edebiyyatı kongresi, Bakı, 2021, s. 15-21

13. Quliyeva S. İbtidai sinif şagirdlərinin valideynlərində pedaqoji kompetensiyaların formalaşmasında müəllimin rolu // Bakı: Məktəbəqədər və ibtidai təhsil jurnalı, 2021, №4, s.83-95

14. Quliyeva S. The main features of pedagogical competence of parents. "Naxçivan" universiteti, Elmi əsərlər. 2022, №1(24). s. 305-311

15. Гулиева С. История развития педагогической компетенции у родителей. МІНІСТЕРСТВО ОСВІТИ І НАУКИ УКРАЇНИ. Черкаський національний університет імені Богдана Хмельницького. 2022, №1, с.51-57

16. Quliyeva S. Gələcək müəllimin peşəkar hazırlığına səriştəəsaslı yanaşma. Qloballaşma şəraitində müəllim şəxsiyyətinin formalaşdırılmasında pedaqogika və psixologiya elmlərinin yeri və rolu respublika elmi konfransi. Sumqayıt. 28-29 aprel, 2022, s.127-130

17. Quliyeva S. Müasir pedaqoji təcrübədə valideynin kompetensiyası anlayışı. Azerbaijan international congress of scientific research, Sheki. 16-17 avqust, 2023, s.320-324

18. Quliyeva S. Ebeveynlerde yeterliliğin geliştirmenin pedagojik temelleri. Qazi Universiteti Beynəlxalq türk Dünya təhsil elmləri Konqres-III. 16-17 noyabr, 2023, s.55-57

19. Quliyeva S. Methods of using mythological texts in teaching to develop eco-consciousness in primary school students. Methods of using mythological texts in teaching to develop eco-consciousness in primary school students. Methods of using

mythological texts in teaching to develop eco-consciousness in primary school students. 2025, s.70-76



Dissertasiyanın müdafiəsi 22 may 2026-cı il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1000, Bakı, Üzeyir Hacıbəyli küçəsi, 68.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron nüsxələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 aprel 2026-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.04.2026
Kağızın formatı: 60x84 16\1
Həcm:  45747
Tiraj: 100